**“Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması cinayətinə dair işlər üzrə məhkəmə təcrübəsi, habelə cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə cinayətinə dair bəzi məsələlər haqqında” Ali Məhkəmə Plenumunun 2023-cü il 20 fevral tarixli 6 nömrəli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələrinə dair Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

# Q Ə R A R I

**“ 7 ” iyul 2026-cı il** **№ 12** **Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən “Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması cinayətinə dair işlər üzrə məhkəmə təcrübəsi, habelə cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə cinayətinə dair bəzi məsələlər haqqında” 2023-cü il 20 fevral tarixli 6 nömrəli Qərar qəbul olunmuşdur.

Həmin Plenum Qərarının hüquqtətbiqetmə təcrübəsinə nə cür təsir etdiyini öyrənmək, qərarda şərh olunan məsələlərə yanaşmalarda əhəmiyyətli ziddiyyətlərin olub-olmamasını müəyyən etmək məqsədi ilə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2023-cü il 20 fevral tarixli 7 nömrəli Qərarı ilə qeyd edilən qərarın tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə Plan təsdiq edilmişdir.

Plana uyğun olaraq monitorinq 2023-cü ilin 1 may tarixindən 2024-cü ilin 1 may tarixinədək olan dövr ərzində ağır cinayətlər məhkəmələrində və apellyasiya instansiyası məhkəmələrində baxılmış Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 193-1-ci maddəsi və 194-cü maddəsi ilə olan ittihamlar üzrə cinayət işlərini əhatə etməklə, məhkəmələrdən anket üzrə məlumatların toplanılması, “Elektron məhkəmə” informasiya sisteminin imkanlarından istifadə edilməsi və bilavasitə məhkəmələrdə işlərin təhlil edilməsi üsullarından istifadə olunmaqla aparılmışdır. Baxılmış işlərin sayı nəzərə alınaraq, Ali Məhkəmənin Plenumunun 2024-cü il 14 iyun tarixli 6 nömrəli Qərarı ilə monitorinqin müddəti 2025-ci ilin 1 may tarixinədək uzadılmışdır.

Monitorinqin nəticələrini müzakirə edib “Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydası”nın 5.6-cı bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu

## QƏRARA ALIR:

“Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması cinayətinə dair işlər üzrə məhkəmə təcrübəsi, habelə cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə cinayətinə dair bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi

Plenumunun 2023-cü il 20 fevral tarixli 6 nömrəli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələri təsdiq edilsin.

**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri** **İnam Kərimov**